


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (23.984)

26 may 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd edib və bu baxımdan Azərbaycan parlamenti sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirib.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğulayıb.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edərək, bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini deyib.

Estoniya parlamentinin sədri Yuri Ratas, ilk növbədə, 28 May – Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik edib, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğulayıb, Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırıb.

# NAXÇIVAN gerçəklikləri




***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”,** – deyən ümummilli lider Heydər Əliyevin siyasi yolunun uğurla davam etdirilməsi Naxçıvanı inkişaf edən diyara çevirib, muxtar respublikanın bütün bölgələri müasirləşib, kəndlə şəhər arasındakı fərq ortadan qaldırılıb, yeni istehsal və xidmət müəssisələri yaradılıb, iş yerləri açılıb, əhalinin rifahı yaxşılaşıb. Əldə olunan inkişaf göstəriciləri ölkəmizin iqtisadi regionları ilə müqayisədə Naxçıvan Muxtar Respublikasının ön mövqedə olmasını şərtləndirir. Bu, ölkə Prezidentinin **“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş***



***bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”** fikirlərində də öz əksini tapır.*

Azərbaycan Respublikasının Əməkdar jurnalisti, “Azərbaycan” qəzetinin baş redaktor müavini İxtiyar Hüseynlinin Naxçıvan Muxtar Respublikasına səfərindən sonra qələmə aldığı silsilə məqalələrdə də muxtar respublikanın inkişafının müxtəlif istiqamətləri ətraflı təhlil olunur, obyektiv jurnalist şərhi ilə oxucuya çatdırılır. Müəllifin həmin məqalələrdən ibarət “Naxçıvan gerçəklikləri” kitabı “Elm və təhsil” nəşriyyatında 1000 tirajla çap olunub. Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir inkişafının mühüm istiqamətləri, genişmiqyaslı quruculuq prosesi və bu diyarın nailiyyətləri fotoşəkillərin müşayiəti ilə verilib. Kitab AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin ön sözü, müəllif qeydləri, eləcə də “Naxçıvanın inkişaf modeli”, “Təhsilin inkişafında lider”, “Naxçıvanda inkişaf kənddən başlayır”, “Made in Nakhchivan” və “Şanlı Naxçıvanın fədakar salnaməçiləri” adlı araşdırma üslubunda qələmə alınan məqalələrdən ibarətdir.

***“Mən üç il Naxçıvanda yaşamağımı və muxtar respublikanın əhalisi ilə birlikdə işləməyimi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm”.*** “Naxçıvan gerçəklikləri” kitabı dahi şəxsiyyətin bu fikirləri ilə başlayır.

Yüksək poliqrafik keyfiyyətlə nəşr edilən kitabın ön sözündə akademik İsa Həbibbəyli yazır: “…*Kitabboyu təsvir edilən bütün hadisələrin və faktların içərisindən qırmızı xətt kimi keçən “Etimadə sədaqətlə xidmət etmək” motivi “Naxçıvan gerçəklikləri”nin nəzər nöqtəsi kimi təqdim etdiyi obyektiv reallığın ifadəsidir… “Naxçıvan gerçəklikləri” kitabı böyük ənənələr diyarı olan Naxçıvanın tarixi inkişaf yolunun publisistik salnaməsi, müasir həyatının və böyük gələcəyinin bələdçisidir”.*



Naxçıvanla bağlı təəssüratların qələmə alındığı yeni nəşrdə yer alan “Naxçıvanın inkişaf modeli” başlıqlı məqalədə qədim yurdun müasir inkişafından, aparılan islahatlardan geniş bəhs edilir. *“Mistika ilə gerçəkliyi, ənənələrlə modernliyi, əzmkarlıqla nailiyyəti, zəhmətlə nəticəni, gedilən yolun uğur hesabatı ilə sabahın düzgün hədəflərini ləyaqətlə birləşdirən göz bəbəyimiz… Nuhçıxandayıq, Nəqşi-cahandayıq, Naxçıvandayıq, muxtar respublikadayıq”* təəssüratları inkişafı xarakterizə edən peşəkar jurnalist yanaşmasıdır. *“Vaxtilə çıraq işığında oturan, üşüyən Naxçıvan indi enerji ixracatçısıdır”,* – deyən müəllif bu məqalədə Naxçıvanın bütün şəhər və kəndlərinin yüz faiz elektriklə təmin olunduğunu, hətta elektrik enerjisinin xaricə ixrac olunduğunu oxucuların diqqətinə çatdırır. Kitabda əsas diqqətçəkən məsələlərdən biri də muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərdir. Qeyd olunur ki, *əgər 2003-cü ildə muxtar respublikada cəmi 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, ötən ildə bu göstərici 11-ə çatdırılıb! Naxçıvan uğur göstəricilərində modern innovasiyalara əsaslanmasa, Prezidentin təbirincə desək, rekordsmenlik göstərməsə, Naxçıvan olmaz axı: elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir!*



Kitabın ən mühüm cəhətlərindən biri də Naxçıvanın müdafiə təhlükəsizliyi ilə bağlı görülən işlər haqqında məlumatların olmasıdır. Bugünkü inkişaf modelinin təməl bazasını təşkil edən müdafiə qüdrətini, hərbi potensialını, ən əsası isə igid oğullarımızın vətənpərvərliyi və hərbi rəşadətini xarakterizə edən – *“Oktyabrın 10-da Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları Qarabağa gələrək ertəsi gündən etibarən Hadrut istiqamətində kəskin zərbələri ilə güclü erməni müdafiəsini yardılar, Şuşayadək rəşadətlə döyüşərək, əsl qəhrəmanlıq örnəyi yaratdılar. Ən çətin döyüşlərdə, alınmaz mövqelərdə, keçilməz sədlərdə aslanlar kimi vuruşdular, güllələri tükənəndə bıçaqla, süngüləri qırılanda yalın əlləri ilə savaşdılar. Tarix və xalqımız Naxçıvan igidlərinin bu ali, səmimi, böyük Qarabağ sevgisini, Azərbaycan vurğunluğunu əsla unutmayacaq!”* – cümlələri muxtar respublikada ordu quruculuğu sahəsində görülən işləri dolğun əks etdirir.

Muxtar respublikada elm və təhsilin inkişafı dövlət siyasətinin prioritetidir. Kitabda Naxçıvanda elm müəssisələri, məktəb binaları, universitet korpusları haqqında məlumatlar və fotoşəkillər yerləşdirilib. “Təhsilin inkişafında lider” adlı məqalədə “Naxçıvanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında necə davamlı rekordçu olurlar?” sualını müəllif elə özü cavablandırır: *“Naxçıvan ənənələr diyarıdır, burada hər bir bucaqda hansısa tarixi ənənənin nişanına rastlamaq, hər bir evdə ənənələrin yaşadıldığına şahid olmaq mümkündür. Bu ənənələrin ən mükəmməllərindən biri də təhsilə və elmə olan bağlılıqdır”.*

Ümummilli lider Heydər Əliyevin ***“Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir”*** fikirlərinin yer aldığı fəsildə muxtar respublika təhsilinin reallıqlarından yazan müəllif Naxçıvan Dövlət Universitetinin nüfuzunun dünyada kifayət qədər yüksək olduğunu qeyd edir, universitetdə yaradılan müasir tədris şəraitindən, dünyanın 50-dən çox ölkəsinin 100-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələrindən, ixtisasların dövlət qurumlarına hamiliyə verilməsindən, innovasiyaların tətbiqindən bəhs edir. Müəllifin də dediyi kimi: *“Naxçıvan Dövlət Universiteti müasir təhsil mərkəzi olmaqla*

Ardı 2-ci səhifədə



*yanaşı, həm də mükəmməl elm məkanı kimi formalaşır. Bu isə universitetin əsas fəaliyyət göstəricilərindən, mühüm qiymətləndirmə amsallarından biri olmaqla yanaşı, daim "alimlər yurdu" kimi səciyyələnən Naxçıvanın nüfuzuna da böyük töhfədir".* Həmçinin məqalədə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin fəaliyyətindən, qazandığı mühüm elmi nailiyyətlərdən də ətraflı məlumat verilir.

"Naxçıvanda inkişaf kənddən başlayır" sərlövhəli məqalədə jurnalist muxtar respublika kəndlərinin müasir quruculuğuna, əhalisinin rifahına, "smart-ağıllı model" tətbiqinə görə də Azərbaycanda lider, rekordçu bölgədir" fikirlərini oxuculara təqdim edir. Kitabda yazılıb: *"Naxçıvanda şəhər mərkəzindən bölgələrə doğru – coğrafi xəritədə məmləkətimizin ən hündür yüksəklikləri kimi əks olunan zirvələrdə qərarlaşmış dağ kəndlərinə gedərkən ətrafımızda sarı rəngli boruların da bizimlə birgə davamlı yol aldığını görürük... 2000-2500 metr hündürlükdə olan yaşayış məntəqələrinə doğru şəhərdən keyfiyyətli asfalt yol və bu qaz boruları gedir... Biranlıq ötən əsrin 90-cı illərinin Naxçıvanının blokadalı həyatı barədə unudulmaz ağrılı faktları yada salıram: işıq və qazın kəsilməsi səbəbindən şəhər, qəsəbə və kəndlərin zülmətə bürünməsi, amansız şaxtada qızınmaq üçün həyətdəki sonuncu ağacların baltalanması nəinki işdə, məktəbdə, hətta mənzillərdə belə insanların paltoda yaşaması... Amma indi mənfi 20 dərəcə şaxtada Naxçıvanın ən ucqar kəndlərinin ən yüksəklikdəki evlərində olarkən mənzildəki müsbət 30 dərəcəlik isti ilə qonaqpərvərliyin hərarətinə birgə qızınırıq... Bu sarı borular yalnız muxtar respublikanın 100 faiz (!) qazlaşdırılmasının isbatı deyil, zənnimcə, elə Yeni Naxçıvanın inkişafının, rifahının, rahatlaşan və firavanlaşan həyatının canlı abidəsidir, möhtəşəm rəmzidir..."*






Ölkə Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən Dövlət proqramlarının uğurlu icrası Naxçıvan Muxtar Respublikasının da çoxşaxəli inkişafına səbəb olub. Kitabda ötən dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalından, istifadəyə verilən elm və təhsil ocağı, mədəniyyət, səhiyyə, idman obyektləri, inzibati bina, istehsal və xidmət sahələri və yeni iş yerlərinin açılmasından, ailə təsərrüfatlarına yaradılan şəraitdən ətraflı bəhs olunur. Bir sözlə, Naxçıvanın davamlı inkişafı statistik rəqəmlərlə geniş oxucu auditoriyasına çatdırılır: *Ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat, bir il öncəki göstəricidən 2,4 faiz çox olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat, ortaaylıq əməkhaqqının məbləği isə 548,8 manat təşkil edib. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27 faizlə sənaye sahəsi tutur və maddi istehsalın payı 59 faizdir. Ötən il muxtar respublikada bir il öncəki göstəricini 1,7 faiz üstələyən həcmdə - 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bunda özəl bölmənin payı 92,3 faizdir. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib. 194 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, yaxud yaradılması davam etdirilib. İndi Naxçıvanda 384 növdə məhsul istehsal olunur. 2021-ci ildə muxtar respublikada sahibkarlara verilən 38 milyon manatdan artıq kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 24 milyon 161 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. 52 hüquqi və 2389 fiziki şəxs qeydiyyata alınıb. 2021-ci ildə bir il öncəyə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində 5 meqavat gücündə "Şərur" Günəş Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi başa çatdırılıb. 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib,149 obyektdə tikinti və yenidənqurma işləri davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib və ötən il əhalinin şəxsi vəsaiti hesabına 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.*



"Made in Nakhchivan" başlıqlı məqalədə isə müəllif Naxçıvanın iqtisadi inkişaf dinamikasına görə ölkənin aparıcı bölgələrindən olduğunu vurğulayır. Bu məqalədə ixrac potensialı ilə regionlar arasında əsas rola sahib olan Naxçıvanın iqtisadi nailiyyətlərinin, heç şübhəsiz, bölgədə özəl sektorun gücləndirilməsinə yönələn tədbirlərin real nəticəsi və təşəbbüslərin uğurla həyata keçirilməsi olduğu qeyd edilir. Naxçıvanda özəl sektora dövlət dəstəyinin gücləndirilməsi ilə yanaşı, sahibkarlıq məsuliyyətinin də artırılmasının ön planda olduğunu qələmə alan müəllif sahibkarlığın inkişafında kadr hazırlığının əsas məsələ kimi qəbul olunduğundan, təhsil və istehsalat müəssisələri arasında əlaqələrin genişləndirilməsindən, həmçinin Naxçıvanda Biznes Mərkəzinin sərgi salonunun guşələrində nümayiş olunan Naxçıvanda özəl sektorun aparıcı təmsilçiləri olan sahibkarlıq subyektlərinin fəaliyyətindən bəhs edib. "21 modeldə 6000-dən çox avtomobil" adlı altbaşlıqda isə Naxçıvanın müasir dövrdə istehsal nümunələri arasında ən məşhuru, sözsüz ki, "LİFAN" markalı avtomobillər olduğunu, dizaynı ilə gözoxşayan, keyfiyyətinə görə sürücülərin razılıq etdiyi maşınların getdikcə populyarlıq qazandığı vurğulanır.



Nəşrdə, həmçinin kənar baxış bucağı ilə Naxçıvanda naxçıvanlıların adi hesab etdiyi, lakin nümunə gücünə malik məsələlər də qabarıq şəkildə öz əksini tapır və oxucunun diqqətini cəlb edir. Bununla bağlı müəllifin fikirlərinə nəzər salaq: *"Kəskin qarın yağdığı vədədə Naxçıvan şəhərindən kəndlərədək gözdik, sübh tezdən kişilər əllərində belləri ilə evlərinin, küçələrinin, iş yerlərinin qarşısında qarı kürüyürdülər. Tam könüllü! ...Yaxud yas və toy mərasimləri məsələsi, hər şənbə keçirilən iməciliklər... Naxçıvanda bunun kimi onlarla prosesin uğurlu həllini camaat özü tapıb və onu qətiyyətlə də qoruyurlar".* Bu məsələ ilə bağlı kitabın ön sözündə akademik İsa Həbibbəyli yazır ki, *belə səciyyəvi detallar inkişafın Naxçıvan modelində təkcə quruculuq proseslərinin deyil, şüurlu dərketmə prinsipinin formalaşması kimi mühüm faktorun da özünəməxsus yer tutduğunu göstərir.*



Kitabın son fəsli isə 100 yaşını adlamış qocaman mətbu orqan – "Şərq qapısı" qəzetinə həsr olunmuş "Şanlı Naxçıvanın fədakar salnaməçiləri" adlı dəyərli məqalədir.



Məqalədə oxuyuruq: *"Çox qəzetin tarixdə izi qalır, 101 yaşlı "Şərq qapısı" isə elə müasir dövr tarixinin özüdür. Heç də mübaliğəyə varmadıq, şişirtmədik. Bu gün Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən, ulu öndər Heydər Əliyevin adını daşıyan hər bir mərkəzdə, muzeydə "Şərq qapısı" qəzetinin hansısa səhifəsinin fotonüsxəsini görə bilərik. Yaxud ümummilli liderin irsini araşdıranlar, Azərbaycanın Qurtuluş missiyasının başlanğıc mərhələsi olan Naxçıvan dövrünü öyrənənlər məhz əsas istinad mənbəyi kimi "Şərq qapısı"nın qapısını döyür".* Kitabda "Şərq qapısı" qəzeti redaksiyasında yaradılan şəraitdən, muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşmasından, jurnalist peşəkarlığından, ötən il qəzetin 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlərdən ətraflı bəhs edilir. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi və onun mətbəəsi ilə də tanışlığını qələmə alan müəllif yazır ki, buradakı cild, çap sexlərində olan avadanlıqların əksəriyyəti alman texnologiyasıdır. Belə yüksək texnologiyanın tətbiqi işləri keyfiyyətli, yüksək poliqrafik göstəricilərlə, sərfəli qiymətlərlə nəşr işi aparmağa imkan verir.



Azərbaycan Respublikasının Əməkdar jurnalisti İxtiyar Hüseynlinin *"Naxçıvan gerçəklikləri" kitabında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir inkişafının mühüm istiqamətləri, genişmiqyaslı quruculuq prosesi və bu siyasətin əsas nailiyyətləri ətraflı işıqlandırılıb. Publisistik janrda, araşdırma üslubunda, səfər qeydləri kimi qələmə alınan məqalələr toplusu həm də gələcək nəsillərə ünvanlanan salnamədir. Naxçıvanın bugünkü reallıqlarını əbədi salnaməyə çevirən dəyərli nəşr haqqında akademik İsa Həbibbəylinin bu fikirləri ilə desək, ""Naxçıvan gerçəklikləri" məqalələr silsiləsi Heydər-İlham Əliyev epoxasında müstəqil Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin işığında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yorulmaz və məqsədyönlü fəaliyyəti ilə baş vermiş böyük inkişafın mükəmməl publisist salnaməsi kimi diqqəti cəlb edir".*

Kitabda özünəməxsus şəkildə qeyd olunan bu ifadələrlə fikrimizi tamamlayırıq: *İnkişafın lider bölgəsi olan Naxçıvan düşmənə gözdağıdır, dosta qürur mənbəyidir!.. Naxçıvan Azərbaycan üçün həm də Qarabağdır, Şərqi Zəngəzurdur!.. Naxçıvan tezliklə keçəcəyimiz Zəngəzur dəhlizidir!.. Naxçıvan Ağdamdır, Kəlbəcərdir, Zəngilandır, Cəbrayıldır, Laçındır... Və Füzulidən Qubadlıya, Suqovuşandan Azıx mağarasına, Hadrutdan Daşaltıyadək tökülən müqəddəs şəhid qanıdır!.. Naxçıvan Şuşada dalğalanan Azərbaycan bayrağıdır!.. Naxçıvan Vətəndir!..*

**Gülcamal TAHİROVA**

## Türk Tarix Qurumunun sədri Birol Çətin: *“Məqsəd ortaq türk tarixini elmi şəkildə dərindən araşdırmaqdır”*



Naxçıvan Dövlət Universitetində keçirilən ikitərəfli görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları ali təhsil ocağında görməkdən məmnunluq duyduğunu ifadə edib. Rektor universitetin yaranma tarixi, mövcud ixtisaslar haqqında məlumat verib. Universitetin yaranmasının 55 illiyinin qeyd olunduğunu bildirən rektor ali təhsil ocağında Tarix ixtisasının da təməlinin elə məhz universitetin yarandığı dövrlə bağlı olduğuna diqqəti çəkib. Universitetin beynəlxalq əlaqələrinin yüksələn xətlə inkişafı ilə bağlı bildirilib ki, bunun aydın təzahürünü ilbəil artan xarici tələbə sayı dinamikasında görmək olar. Vurğulanıb ki, ali təhsil ocağında 10 ölkədən olmaqla, 1500-ə yaxın əcnəbi tələbə təhsil alır ki, bunun da 800 nəfəri türkiyəlidir. Məlumat verilib ki, universitetin beynəlxalq əlaqələrində Türkiyə Respublikası xüsusi əhəmiyyətə malikdir. Diqqətə çatdırılıb ki, dünyanın 130-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlığa malik olan universitetin Türkiyənin 80-dək ali təhsil ocağı ilə əlaqələri mövcuddur. Universitetdə fəaliyyətə başlayacaq Texnoparkdan bəhs olunarkən vurğulanıb ki, bu sahədə də qardaş Türkiyə universitetləri ilə beynəlxalq əməkdaşlıq müqavilələri imzalanıb. Rektor universitetin ikili diplom layihələrində fəal iştirakı haqqında məlumat verib.

Türk Tarix Qurumunun sədri Birol Çətin Naxçıvanda olmaqdan sevinc hissini dilə gətirib. Təmsil etdiyi Türk Tarix Qurumunun yaradılması, fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verən professor qurumun 90 ildən artıq dövrünə nəzər salıb. Bildirilib ki, bu illər ərzində türk tarixinin araşdırılmasını əsas məqsəd kimi qarşıya qoyan qurumun son illər arxeologiya sahəsində aşkar etdiyi elmi faktlar bu sahənin inkişafına öz müsbət təsirini göstərib. Bütün ixtisas sahələrinin tarix elmi ilə əlaqədar məqamlarına toxunan professor bu elm sahəsində böyük inkişafın əldə olunduğunu diqqətə çatdırıb. Birol Çətin müasir siyasi proseslərdə və beynəlxalq elmi arenada tarix elminin mühüm rolunu vurğulayıb. O qeyd edib ki, keçirilən görüşlərin əməli nəticəsi olmalı və müəyyən məqsədə çatmaq üçün bir hədəf müəyyənləşməlidir.

Müzakirə şəklində keçirilən görüşdə əməkdaşlıq məsələlərinə toxunulub, birgə elmi nəşrlər, konfrans və görüşlərin keçirilməsi barədə razılığa gəlinib. Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, görüşdə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz da iştirak edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***



Xəbər verdiyimiz kimi, Türkiyə Cümhuriyyəti Mədəniyyət Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Ali Qurumunun Türk Tarix Qurumunun sədri və nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər. Qonaqlar səfər çərçivəsində elm, təhsil sahəsində bir sıra rəsmi görüşlər keçirib, muxtar respublikanın tarixi-mədəni abidələrini, turizm obyektlərini ziyarət ediblər. Türk Tarix Qurumunun sədri, professor Birol Çətin səfərin məqsədi, keçirilən görüşlərin nəticələri barədə fikirlərini “Şərq qapısı” qəzetinin oxucuları ilə bölüşüb:

– Naxçıvan Muxtar Respublikasına ikigünlük səfərimiz çox məhsuldar və uğurlu keçdi. AMEA Naxçıvan Bölməsi ilə birgə elmi araşdırmaların aparılması, beynəlxalq simpoziumların, konfransların və tədbirlərin təşkili, elmi əsərlərin müəllif hüquqlarının və tərcümələrinin dəstəklənməsi, nəşr edilməsi və yayılması, Türkiyə və Azərbaycan arxeoloqlarının birgə iştirakı ilə arxeoloji qazıntıların aparılması, elmi və mədəni görüşlərin birgə təşkili, elm adamlarının, doktorant və mütəxəssislərin mübadiləsi, hər iki ölkədə doktorantura tələbələri üçün yay məktəblərinin təşkili və digər mühüm məsələləri özündə əks etdirən müqavilə imzaladıq. Niyyətimiz bütün bunların kağız üzərində qalması yox, gerçəkliyə çevrilməsidir.



Naxçıvanın çox ciddi potensialı vardır, xüsusilə də buradakı elm, təhsil sahəsinə rəhbərlik edən insanların tarixçi olması, dövlətin tarixin qorunmasına, yaşadılmasına qayğı ilə yanaşması bizi birgə elmi fəaliyyətə həvəsləndirir. Bildiyimiz kimi, tarix məsələsi çox həssasdır, önəmlidir. Əgər biz bərabər çalışmasaq, xalqlarımızın bədxahları tarixi saxtakarlıqla əleyhimizə sui-istifadə edə bilərlər. Bu mənada, tarixçilər ölkələri bir-birinə düşmən də, dost da edə bilər. Biz bunun fərqindəyik. Türk Tarix Qurumu 91 illik bir qurumdur. Nəticə etibarilə, bizim əsas məqsədimiz türk tarixini elmi şəkildə bütün yönləri ilə dərindən araşdırmaqdır. Elə muxtar respublika rəhbəri də bizimlə görüş zamanı bu mühüm məsələyə diqqəti çəkərək ortaq türk tarixinin yazılmasının, qədim türk torpağı olan Naxçıvanın tarixi ilə bağlı birgə elmi araşdırmalar aparılmasının zəruriliyini vurğuladı. Naxçıvandakı məsləkdaşlarımızla ortaq işlərimiz çox olacaq. Gənc nəsil çap məhsullarından daha çox elektron vasitələrə üstünlük verdikləri üçün məqsəd müasir texnologiyalardan da istifadə edərək tarixi öyrətmək və sevdirməkdir. Məhz səfər zamanı bu istiqamətdə hansı işlər görəcəyimizi də müzakirə etdik. Eyni zamanda gənc elm adamlarının yetişməsində də imkanlarımızı qarşılıqlı şəkildə paylaşacağıq. Azərbaycan tarixə maraqlı, tarixə qiymət verən bir ölkədir. Biz tarix qurumu olaraq belə bir fürsəti mütləq dəyərləndirməliyik. Bir ildir, artıq görüşlərimiz olur. Daha öncə bir toplantı keçirdik. Bu layihələri reallaşdırandan sonra daha ətraflı danışmaq olar.

Onu da deyim ki, ilk dəfədir, Naxçıvana gəlirəm. Naxçıvan çox gözəl şəhərdir. Təbiəti gözəldir, şəhər planlaması olduqca maraqlıdır. Təbii ki, tarixi baxımdan muzeylərin etnoqrafik materiallarla zənginləşdirilməsi lazımdır. Bu məsələlərdə qurumumuzun əməkdaşları tərəfindən köməklik göstərilə bilər. Ümumiyyətlə, gələcəkdə bir sıra istiqamətlərdə birgə işlər həyata keçirməyi planlaşdırırıq. Əminik ki, əməkdaşlığımız öz müsbət nəticələrini verəcək.

**✍ Nail ƏSGƏROV**

*Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri və onların ailə üzvlərinin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib. Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Muzeyində, Heydər Əliyev adına Hərbi Liseydə və bir sıra hərbi obyektlərdə olublar.*

## Hərbi attaşelər Naxçıvana səfər ediblər

Qonaqlar əvvəlcə Heydər Əliyev Muzeyini ziyarət ediblər. Məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından və digər eksponatlardan ibarətdir.



Diqqətə çatdırılıb ki, dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Ziyarətin sonunda qonaqlar muzeyin xatirə kitabına ürək sözlərini yazıblar.

Sonra Heydər Əliyev adına Hərbi Liseydə olan qonaqlara məlumat verilib ki, 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün ölkəmizin müxtəlif bölgələrindən yüzlərlə gənc hərbi təhsil alır. Nümunəvi hərbi tədris sisteminə və möhkəm maddi-texniki bazaya malik olan hərbi lisey silahlı qüvvələrin peşəkar hərbi kadrlarla təminatında önəmli rol oynayır. Liseyin məzunları Vətən müharibəsində peşəkarlığı və qəhrəmanlığı ilə qələbədə böyük paya sahib olublar. Liseydə kursantların təhsili, yaşayışı və asudə vaxtlarının səmərəli təşkili təmin edilib, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılıb. Burada kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzindədir.



Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilib.

Qonaqlar kursantların sosial məişət şəraiti, yataqxana və tədris otaqları ilə tanış olublar.

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun müxtəlif bölmələrinə baş çəkib, qərargah və digər binaların imkanları ilə tanış olublar. Təlim-Tədris Mərkəzində qonaqlara məlumat verilib ki, binada rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, tədbir zalı fəaliyyət göstərir. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə trenajorlar quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir.

Sonra qonaqlar hərbi hissədə əsgəri-məişət kompleksləri, həmçinin döyüş texnika parkı və döyüş texnikaları ilə tanış olublar. Ziyarət zamanı qonaqlar üçün çay, eləcə də nahar süfrəsi təşkil edilib.

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin Naxçıvan Muxtar Respublikasına səfəri davam edir.

***Xəbərlər şöbəsi***

## Yaradıcılıq müsabiqəsinə yekun vurulub



*Aprel ayının əvvəllərində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə “İstedadlar səhnəsi” adlı yaradıcılıq müsabiqəsinə start verilib. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində müsabiqənin mükafatlandırma mərhələsi keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar təhsil müəssisələrindəki dərnəklərə, kurslara cəlbi diqqətdə saxlanılır, nazirlik tərəfindən keçirilən inşa, şeir, dram və digər müsabiqələrdə onların da iştirakı təmin olunur. Nazir keçirilən yaradıcılıq müsabiqəsinin bu kateqoriyadan olan şagirdlərin asudə vaxtlarının səmərəli təşkili, onların bacarıq və istedadlarının üzə çıxarılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb, müsabiqə qaliblərini təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxışında qeyd edib ki, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının təşkilinə, onların cəmiyyətə fəal inteqrasiyasına xidmət edən sosial layihələrin və reabilitasiya xidmətlərinin həyata keçirilməsi cari ilin ötən dövründə də davam etdirilib. Bu kateqoriyadan olan uşaqların iştirakı ilə 10-a yaxın yaradıcılıq tədbiri təşkil olunub, bu tədbirlərə, ümumilikdə, 100-dən artıq uşaq cəlb edilib. Eyni zamanda nazirliyin tabeliyində fəaliyyət göstərən müəssisələrdə 200-dən çox uşağa müvafiq xidmətlər göstərilib. Nazir diqqətə çatdırıb ki, həmçinin ilin ötən dövrü ərzində sağlamlıq imkanları məhdud istedadlı şəxslərin əmək qabiliyyətinin stimullaşdırılması məqsədilə bu qəbildən olan 27 müəllifin 500-ə yaxın əl işinin sərgi-satışı da təşkil edilib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova çıxışında vurğulayıb ki, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili onların reabilitasiyanın təmin etməyin ən faydalı üsullarındandır. Bu məqsədlə uşaqların idman oyunlarında, müxtəlif yarış və müsabiqələrdə, eləcə də mədəni tədbirlərdə iştirakı, uşaq musiqi məktəblərinə cəlbi üçün şəraitin yaradılması onların həyat fəaliyyətinin məhdudlaşmasının aradan qaldırılmasına xidmət edir. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində hazırda 72 fiziki imkanı məhdud şagird təhsil alır.

Çıxış edənlər sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Təltifetmə mərasimində ilk yerləri tutanlara qiymətli hədiyyələr və diplomlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr və fəxri fərmanlar təqdim olunub. Tədbir müsabiqənin final mərhələsində fərqlənən iştirakçıların yaradıcılıq nümunələrinin nümayişi ilə davam etdirilib. Sonda sağlamlıq imkanları məhdud şəxslərin hazırladıqları əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq “Muxtar respublika əhalisinə göstərilən dispanserizasiya xidmətinin vəziyyətinin daha da yaxşılaşdırılması” mövzusunda seminar keçirilib.*

## Dispanserizasiya xidmətinin vəziyyətinin yaxşılaşdırılmasına həsr olunmuş seminar

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva muxtar respublikada səhiyyə sahəsinə göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, yaradılan şərait əhalinin sağlamlığına nəzarəti vaxtında yerinə yetirməyə, xəstələrin dispanserizasiyasını yüksək səviyyədə həyata keçirməyə imkan verib. Bu istiqamətdə görülən işlərdən bəhs edən Samrat Gəncəyeva diqqətə çatdırıb ki, nazirlik muxtar respublikada əhaliyə göstərilən dispanserizasiya xidmətinin daha da yaxşılaşdırılması məqsədilə lazımi tədbirləri həyata keçirir.

Nazirliyin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov muxtar respublikada dispanserizasiya xidmətinin təşkili məsələləri, verilmiş tapşırıqların icrası vəziyyəti və bu istiqamətdə görülən işlər barədə danışıb. Məlumat verilib ki, dispanserizasiya əhalinin sağlamlığının qorunması üçün ən vacib profilaktik tədbirlərdən biridir. Dispanserizasiya xidmətinin icrası müvafiq ixtisaslı dispanser və mərkəzlər tərəfindən, həmçinin rayonlarda rayon mərkəzi xəstəxanalarının Poliklinika şöbəsindəki müvafiq kabinələr, kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri tərəfindən yerinə yetirilir. Şəhər mərkəzində isə bu funksiya Naxçıvan Şəhər Poliklinikası tərəfindən icra olunur. Bildirilib ki, aidiyyəti tibb müəssisələri müvafiq dispanserlər və mərkəzlərlə əlaqələrini daha da yaxşılaşdırmalı, qeydiyyatda olan xəstələr üzərində müayinə və müalicə tədbirləri artırılmalıdır.

Seminarda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Professor Səidə Məmmədovanın 80 illik yubileyi qeyd edilib



*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının ilk qadın dirijoru, xormeyster, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, Fortepiano kafedrasının professoru Səidə Məmmədovanın 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.*

Naxçıvan Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva yubilyarın ömür yoluna nəzər salıb, mədəniyyət və incəsənətin inkişafına verdiyi töhfələri diqqətə çatdırıb.

Universitetin rektoru Elbrus İsayev bildirib ki, ömrünün 60 ilini muxtar respublikada mədəniyyət və incəsənətin inkişafına həsr edən Səidə Məmmədova 30 ilə yaxın müddətdə ali təhsil ocağının konservatoriyasında kadr hazırlığı istiqamətində də öz xidmətləri ilə seçilən dəyərli ziyalımızdır. Rektor sənətkarın Naxçıvan Musiqi Kollecinin yaradılmasında xüsusi xidmətlərini qeyd edərək onun kollecin ilk direktoru kimi fəaliyyətinə nəzər salıb. Vurğulanıb ki, nəinki Azərbaycanda, hətta xarici ölkələrdə də incəsənətimizi layiqincə təmsil edən dəyərli sənətkarımız dövlət qayğısından hərtərəfli bəhrələnib. Rektor yubilyara universitet Elmi Şurasının Fəxri fərmanını və hədiyyə təqdim edib.

Sonra Universitet televiziyasının hazırladığı, yubilyarın həyat və yaradıcılığına həsr olunan filmə baxış olub. Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxışında bildirib ki, xor sənətinin inkişafında xüsusi xidmətləri ilə seçilən Səidə müəllim həm də ilk qadın dirijor kimi mədəniyyət və incəsənət sahəsində öz dəstxəti olan dəyərli sənətkarlarımızdandır. Bəstəkarlar Təşkilatının üzvü olan Səidə Məmmədova bir bəstəkar kimi də peşəkar fəaliyyət göstərib.

Azərbaycan Respublikasının Xalq artisti, professor Çingiz Axundov, yubilyarın həyat və fəaliyyəti haqqında “Bir ömrün sənət zirvəsi”



adlı yubiley nəşrinin müəllifi, dosent Qalibə Hacıyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov yubilyar haqqında xoş xatirələrini bölüşüb, ürək sözlərini ifadə ediblər.

Səidə Məmmədovanın ilk tələbələrindən olan Bakı şəhər Cövdət Hacıyev adına 3 nömrəli 11 illik musiqi məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məhin Orucova öz müəllimi haqqında xoş sözlər söyləyib.

Universitetin konservatoriyasının, Naxçıvan Musiqi Kollecinin, Bakı şəhər Cövdət Hacıyev adına 3 nömrəli 11 illik musiqi məktəbinin təqdim etdiyi konsert proqramında digər ifalarla yanaşı, Səidə Məmmədovaya məxsus “Sevirəm yurdumu”, “A nazlı dilbər” kimi mahnılar da tamaşaçıların ruhunu oxşayıb.

Tədbirin sonunda yubilyar çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***İdmanın bir çox sevilən növü var ki, olimpiya oyunlarının proqramından kənarda qalıb. Lakin son olaraq Tokioda keçirilən Yay Olimpiya Oyunlarına daxil edilən karate, şübhəsiz ki, döyüş idmanı həvəskarlarının ən sevimli növüdür. Burada qazanılan uğurlar, yarışlarda ölkəmizi layiqincə təmsil edən döyüşçülər isə yeniyetmə və gənc idmançılar üçün əlavə stimuldur, onların kumirləridir. Təbii ki, bu yol asan qət olunmur: qazanılan hər bir uğurun arxasında ağır məşqlər və təlim-məşq toplanışları, iştirak etdikləri yarışlar, sevinc və kədər, məsuliyyət durur. Yazımızın bugünkü qəhrəmanı bu məsuliyyəti yaşının az olmasına baxmayaraq, dərk edən, məşqçilərin hər zaman ümidlərini doğruldan Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi Vüsal Seyidovdur.***

## Günəş Şərqdə doğur

### Naxçıvanın qızıl əyarlı idmançısı

*Bu günə qədər keçilmiş yola nəzər*

Vüsal Seyidov 30 oktyabr 2004-cü ildə Babək rayonunun Vayxır kəndində dünyaya gəlib, 8 yaşında karate dərnəyinə yazılıb. Onun idmançı karyerasına başlamasında atası Mirşahin Seyidovun rolu çox olub. Belə ki, bu yolu məhz atasının idmana olan marağından həvəslənərək seçib. Atası ilə söhbətimiz də elə bu istiqamətdə oldu. Onun fikrincə, əsl uğur uşaqla məşğul olacaq məşqçinin seçimidir: “Bu yolda Vüsalın və valideyn olaraq mənim bəxtim gətirib. Çünki onun qazandığı müvəffəqiyyətlərdə məşqçisi Nəriman Quliyevin böyük rolu var. İlk məşq günündən başlayaraq Vüsalla daim maraqlandı, onunla individual şəkildə məşğul oldu. Etiraf edim ki, onun belə uğur qazanacağını düşünmürdüm. Məqsədim, sadəcə, Vüsalın sağlam fərd kimi böyüməsi idi. Zaman keçdikcə o, məşqlərə daha çox vaxt ayırmağa başladı və bu da gözəçarpan nailiyyətlər əldə etməsinə səbəb oldu. Vüsal diqqətini təkcə idmana yox, eyni zamanda dərslərinə də kökləyib. İdmanla yanaşı, təhsilin önəmini də yaxşı anlayır”.




Digər növlər kimi, karate də amansız idmandır. Kənardan asan görünə bilər, lakin qazanılan hər qələbə böyük əziyyətlərin hesabına mümkün olur. Həftənin hər günü məşq, ciddi rejim, dostlardan bir qədər ayrı düşmək bu uğurların memarıdır. Vüsalın özü də bunu təsdiqləyir: “İdmana gələrkən bunun belə olacağını, düzünü deyim ki, bilmirdim. Ancaq tez bir zamanda başa düşdüm ki, gələcək karyeranın uğurlu olmasını istəyirsənsə, bütün deyilənlərə əməl etməlisən. Hər şey çox çətindir – bədən ağrılarının necə olduğunu bilirəm, bunu idmançılar daha yaxşı anlayar. Ancaq dözürük, çünki hər əziyyətin sonunda uğur var. Ən əsası, fəxri kürsüdə sənin şərəfinə ölkənin himni səslənəndə keçirilən hisslərin əvəzini heç nə verə bilməz”.

*Məşqçi tərifi və arzusu*

Bütün idmançılar kimi, hər bir məşqçinin də arzusu olur – yetirməsi onu qürurlandırsın, fəxrlə onun adını dilə gətirsin. Nəriman Quliyevi bu məşqçilər siyahısına asanlıqla daxil edə bilərik. Onun Vüsal haqqında dediklərini dinlədikcə, belə bir fikir formalaşır: bu, məşqçinin əziyyətini boşa verməkdənsə, idmandan uzaqlaşmaq daha məqsədəuyğundur: “Uzun illərdir, məşqçi kimi fəaliyyət göstərirəm və yüzlərlə yetirməm olub. Onların bəziləri məşqə, sadəcə, vaxt keçirmək və ya dostları arasında “karate ilə məşğul oluram” demək üçün gəliblər. Vüsal məşqə gələn günü ondan fikirlərini soruşdum. “Sonadək gələcəm”, – dedi. Maraqlı ünsiyyət qabiliyyəti var və bunu atasına da bildirdim. Zaman keçdikcə ondakı istedadı, əzmkarlığı sezdim və onu gündəlik olaraq məşqlərə çağırdım. İlk günlərdə çətinlik çəkirdi, onunla bir neçə dəfə fərdi söhbətlər apardım, fikrini dinlədim. Düzgün yolda olduğunu dedim. Müvəffəqiyyətlər qazanacağına inanırdım. Onu da deyim ki, Vüsal idmanla yanaşı, dərslərinə də çox önəm verirdi. Əl-ayağı ilə yanaşı, “başını da işlətməsi” bir sıra qələbəyə imza atmağa imkan verib. Bizim federasiyanın bir şüarı, devizi var: uğurlu nəticə birimizin yox, hamımızındır. Buna görə federasiyamızda istedadlı uşaqlarla mütəmadi olaraq təklikdə dərslər keçilir, onların zəif cəhətləri üzərində dayanır, bunları aradan qaldırmağa çalışırıq. Məqsədimiz Naxçıvanda idmana göstərilən qayğıdan bəhrələnmək, göstərilən etimadı doğrultmaqdır. Vüsalın Avropa çempionatında qalib adını qazanması bir məşqçi kimi məni qürurlandırdı, bunu sözlə ifadə etmək qeyri-mümkündür”.

Gənc idmançımızın tatamidəki döyüşünü izləmək böyük zövqdür. Ayaq zərbələrini təmiz, yüksək dəqiqliklə yerinə yetirir. Xüsusilə cəld hərəkətlə qarşısındakını yerə yıxaraq son zərbəni vurur, taktiki cəhətdən fikrini cəmləyə bilir. O həm müdafiə, həm də hücumda effektiv olmağı sevir. Fiziki hazırlığının yaxşı olması ona son saniyələrə qədər sabit döyüşmək şansı yaradır. Vüsal üçün qələbəyə hansı zərbə imkan verirsə, onu seçir, qalib ruhlu döyüşçü üçün isə bu, məntiqli addımdır.

Məşqçi Nəriman Quliyevin fikrincə, hər bir məşqçinin borcu uşaqları Vətəninə, millətinə layiqli vətənpərvər biri kimi yetişdirməkdir. Məşqçilər yetirməsini ən yüksək yerdə görmək istəyər. Ən böyük arzum Vüsalın olimpiya oyunlarında iştirakı və orada Azərbaycan bayrağını dalğalandırmasıdır.

*Uğurları*

Vüsal Seyidovun məşqlərə başlamasından çox keçmir ki, o öz həmyaşıdları arasında seçilməyə başlayır. Yoldaşlıq görüşləri, şəhər və muxtar respublika birinciliklərində rəqiblərini üstələyən idmançımız artıq beynəlxalq yarışlar barədə düşünməyə başlayır. Məşqçilər onun gələcək perspektivlərini nəzərə alaraq 2016-cı ildə İran İslam Respublikasında keçirilən beynəlxalq turnirdə iştirakını lazım bilirlər. 12 yaşlı karateçimiz məşqçilərin ümidlərini doğruldaraq qalib adını qazanır. Elə həmin il Vüsal Naxçıvan Muxtar Respublikasında keçirilən daha bir beynəlxalq turnirin qalibi olur. 2018-ci ili də idmançımız üçün uğurlu il hesab etmək mümkündür. İlk olaraq Bakı şəhərində keçirilən beynəlxalq turnirdə fəxri kürsünün ən yüksək zirvəsinə qalxan idmançımız, ardınca İran İslam Respublikasında təşkil olunan 2-ci beynəlxalq karate turnirində eyni nəticəni təkrarlayır. 2019-cu il idmançımızın karyerasına qızıl hərflərlə həkk olunub desək, yəqin ki, yanılmarıq. Bakı şəhərində keçirilən “10-cu Baku Open” beynəlxalq turnirin qalibi olan Vüsal Seyidov Gürcüstan Respublikasının Batumi şəhərində keçirilən “Open Batumi” beynəlxalq turnirində kumite və kata üzrə yarışlarda da qalib adını qazanıb. Türkiyə Cümhuriyyətinin Rizə şəhərində keçirilən Qara dəniz və Xəzər dənizi ölkələri arası karate çempionatında gümüş medal qazanan naxçıvanlı idmançı həmin il Makedoniyanın Skopye şəhərində keçirilən 11-ci Şotokan Karate Avropa Çempionatında WKF Kumite və şobu ippon kumite növləri üzrə qitə çempionu adına layiq görülüb. Eyni zamanda həmin çempionatda Vüsal şobu sanbon kumite növü üzrə də gümüş medal qazanıb. İlin sonunda Dünya Şotokan Karate Federasiyasının baş məşqçisi Hitoshi Kasuyaya imtahan verərək I DAN qara kəmər sahibi olub. 2022-ci ildə Bakı şəhərində keçirilən yeniyetmələr və gənclər arasında ölkə birinciliyində bürünc medalı boynuna asan Vüsal Seyidov cari ildə növbəti dəfə ümidləri doğruldub. Belə ki, milli komandamızın üzvü olan idmançımız Bolqarıstanın Albena Kranevo şəhərində keçirilən 12-ci Avropa şotokan çempionatında iştirak edib. Karatenin “kata”, “şobu ippon”, “şobu sanbon”, “WKF kumite” üslublarında qaliblərin müəyyənləşdiyi qitə birinciliyində 16-17 yaşlılar arasında çıxış edən Vüsal Seyidov 3 fərqli üslubda qalib gələrək bir ilkə imza atıb. O anları xatırlayan idmançımız bunları dilə gətirir: “Bu mənim üçün ən vacib çempionat idi. Fəxri kürsünün ən yüksək pilləsinə qalxmaq, bayrağımızı yüksəltmək və himnimizi səsləndirmək hər bir idmançı üçün böyük qürurdur. Bu qüruru yaşatdığım üçün xoşbəxtəm”.

*İdman və təhsil*

Babək rayonunun Vayxır kənd tam orta məktəbində təhsilini başa vurmuş Vüsal Seyidov hazırda Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin I kurs tələbəsidir. Azərbaycan milli komandasının da üzvü olan idmançımızın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na daxil edilib və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb: “Əgər karatedə uğur qazana bilməsəydim, çox güman ki, həkim olacaqdım. Bu mənim uşaqlıq arzum idi. İndi də, demək olar ki, bu arzuma çatmışam. İdmanla yanaşı, dərslərimə də ara verməmişəm və universitetə qəbul olmuşam, həm də sevdiyim ixtisasa”.




*Hobbisi olmayan idmançı*

İdmançıların asudə vaxtı çox az olur. Gərgin məşqlər, yarışlar, turnirlər idmançıların bütün həyatını zəbt edir, – desək, yanılmarıq. Vüsal Seyidov da bu cəhətdən fərqlənmir. Onun iş və idmandan kənar əlavə məşğuliyyəti, hobbisi yoxdur. İdmansız bir gününü belə təsəvvür etməyən Vüsalın ən yaxın dostu elə atasıdır. Ata ilə oğul arasında valideyn-övlad münasibətilə yanaşı, həm də dostluq əlaqələri var. Bu isə uğurun əsas təməl prinsipidir.

*Portret...*

Bir idmançının uğur qazanması üçün əsas lazım olan xüsusiyyət onun xarakteridir. Məhz bu xüsusiyyət Vüsalın uğurlarının açarıdır. O, məğlub olduqda belə ruhdan düşmədi, tatami üzərində xarakter nümayiş etdirdi. Öz gücünə, savadına inanan gənc karateçimizin daha böyük uğurlara imza atmaq üçün potensialı var. Çünki onun digər müsbət xüsusiyyəti də var – əzmkarlığı. Avropanın qızıl medalına sahiblənən Vüsal Seyidovun indi əsas məqsədi böyüklər arasında dünya, Avropa və olimpiya çempionu olmaqdır. Özü də yaxşı bilir ki, bu yolda ona xarakteri və əzmkarlığı köməklik edəcək.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonunun Oğlanqala kəndində yaşamış Ələkbər İsmayıl oğlu Ələkbərovun adına olan JN-686 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Abbasova Aynur Əlisübhi qızının adına verilmiş AD-0047056 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Həzi Aslanov küçəsi, döngə 7, ev 6-da yaşamış Şirinov Hüseyn İmaməli oğlunun adına olan evin 1345 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 457